# Hər bir otağı eksponat olan ev

## Nəriman Nərimanovun xatirə muzeyi keşməkeşlər və şərəflə dolu bir ömürdən söhbət açır

**İctimai-siyasi xadim, publisist, dramaturq, müəllim, həkim, dövlət xadimi Nəriman Nərimanovun xatirə muzeyini İstiqlaliyyət küçəsi, 35-də (keçmiş Nikolayevski küçəsi, 17 və Kommunist küçəsi, 35) yerləşən binanın 2-ci mərtəbəsində ziyarət etmək olar. Muzey 1977-ci il noyabrın 6-da ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb.**



Vaxtilə tacir Babayevə məxsus olan həmin bina memar M.M.İsmayılovun layihəsi əsasında 1900-cu ildə tikilib və iki mərtəbədən ibarət olub. N.Nərimanov bu binadakı mənzilində ailəsi ilə birlikdə yaşayıb. Görkəmli xadimin həyatının Həştərxan sürgünündən Bakıya qayıtdıqdan sonrakı dövrü - 1913-cü ildən 1918-ci ilədək dövr məhz bu evlə bağlıdır.



Tarix və ədəbiyyat profilli muzey Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olmaqla Bakı şəhər İcra Hakimiyyəti aparatının Mədəniyyət və Turizm İdarəsinə tabedir.

Muzeyin ekspozisiyası 4 otaqdan ibarətdir. Yemək, qonaq və yataq otaqları və həkim kabineti. Bu otaqlarda nümayiş etdirilən eksponatlar N.Nərimanovun ictimai-siyasi, ədəbi, maarifçilik, həkimlik, publisistik, diplomatik və dövlət xadimi kimi fəaliyyətindən bəhs edir.

### TİFLİSİN ŞEYTANBAZAR MƏHƏLLƏSİNDƏKİ EV

Ekspozisiyanın 1-ci otağı N.Nərimanovun uşaqlıq və gənclik illərinə dair sənəd və materialları nümayiş etdirir. Bu otaqda görkəmli xadimin doğum və Qori Müəllimlər Seminariyasını bitirməsi haqqında şəhadətnamələri, Qızılhacılı kənd məktəbində müəllimlik fəaliyyətindən bəhs edən materiallar yer alıb. Divarda görkəmli xadimin anası, bacı və qardaşının, qohumlarının, həmçinin öz uşaqlıq illərini əks etdirən nadir fotolar var. Onun öz əli ilə yazdığı tərcümeyi-halı da eksponatlar sırasındadır. Qədim samovar, mücrü, kiçik stol isə N.Nərimanovun şəxsi əşyaları olub. Bundan əlavə, ekspozisiyada o dövrə aid stol və stullar da yer alıb. Köhnə Bakının şəkli isə muzeyin unikal eksponatlarındandır. Dramaturqun "Şamdan bəy", "Bahadır və Sona", "Nadir şah", "Müəllimlərsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça", həmçinin "Müəllimlərsiz rus dilini öyrənməkdən ötrü türklər üçün asan kitabça", H.Z.Tağıyevin 50 illiyi ilə bağlı kitabları da eksponatlar arasındadır. Nadir eksponatlardan biri də həyat yoldaşı Gülsüm xanımın şəkilləri və Abdulla Şaiqin nişanı münasibətilə ona yazdığı məktubdur. Həmçinin divardakı nadir fotolar arasında dövrünün Nəsib bəy Yusifbəyli, Əbdüləli Əmircanov, Məmmədhəsən Hacinski, Məhəmməd Əmin Rəsulzadə kimi görkəmli ziyalılarının, "Hümmət" qəzetində çalışdığı illərin fotoları diqqət çəkir.



Tiflisdəki ata-baba mülkünün maketi isə çox unikal eksponatdır. Həmin evinsə maraqlı tarixçəsi var. Muzeyin direktoru, görkəmli şəxsiyyətin böyük qardaşı Salmanın nəticəsi Kamilə xanım danışır ki, Tiflisin Şeytanbazar məhəlləsindəki o ev hazırda sökülüb. Evin 2-ci mərtəbəsi muzey kimi fəaliyyət göstərirmiş. Arxası dağa söykənən ev plana düşdüyündən sökülməli olub: "Əvvəl dedilər ki, ev qalacaq, sökülməyəcək. Ancaq ev təmir olunmalı idi. Sonra mənə zəng etdilər ki, ağır texnika işləyib və evin bir tərəfi sökülüb. Ev sökülən vaxt mən Tiflisdə idim. Məni planla tanış etdilər. Ev ilə bağlı Azərbaycan və Gürcüstan mədəniyyət nazirlikləri və SOCAR arasında üçtərəfli müqavilə bağlanıb. Onlar bilirlər ki, bu ev bərpa olunmalıdır. Amma hələ ki, bir xəbər yoxdur..."




### YAZI MASASI, KÜRSÜ, QARAGÜL PAPAQ

Qonaq otağı olan ikinci ekspozisiya otağında isə N.Nərimanovun ictimai-siyasi fəaliyyəti XX əsrin ilk onilliklərinə aid olan sənəd və materiallarda əks olunur. Ekspozisiyada yer alan xatirə əşyalarının hamısı görkəmli xadimə məxsusdur. O, bu əşyalardan istifadə edib, onlara əli toxunub. Yazı masası, kürsü, çılçıraq, masa üzərində 1925-ci ildə öz əli ilə yazdığı nəsil şəcərəsi, oğlu Nəcəfə yazdığı yarımçıq məktub, "Molla Nəsrəddin" jurnalının sayı nadir eksponatlar hesab edilir. Ekspozisiyada N.Nərimanovun və oğlunun ölümü ilə bağlı sənəd və materiallar, habelə görkəmli xadimin adının əbədiləşdirilməsindən bəhs edən sənədlər və diplomatik pasportu nümayiş etdirilir.

Otağın divarlarını Əlibəy Hüseynzadə, Üzeyir bəy, Səmədbəy Mehmandarov kimi məsləkdaşlarının, həmçinin görkəmli xadimin kəndlilər arasında, Şuşadakı məsciddə, "Nərimaniyyə" məktəbində və s. yerlərdəki unikal fotoları yer alıb. Xalq rəssamı Oqtay Sadıqzadənin N.Nərimanova həsr etdiyi üç əsər də muzeyin eksponatları sırasındadır. Görkəmli xadimin Tiflisdəki evindən gətirilən qaragül papaq isə eksponatlar sırasına son illərdə daxil edilib.

Kamilə xanım deyir ki, N.Nərimanovun toyu da bu otaqda keçirilib. Dövrünün görkəmli xadimləri bu toyda iştirak ediblər.

### TOYUNDA SARABSKİ OXUYUB

Xatirə muzeyinin 3-cü ekspozisiyası yataq otağıdır. Stolun üstündə N.Nərimanova məxsus kəhrəba təsbeh, son illərdə eksponatlar sırasına daxil olan portsiqar, anasının şəkli, divarda oğlu Nəcəf, həyat yoldaşı Gülsümlə çəkdirdikləri ailəvi şəkilləri yer alıb. Küncdəki çarpayı, paltar şkafı, xalça, saat da unikal xatirə əşyalarıdır. Qədim sandıq isə Tiflisdəki evindən gətirilib. Ekspozisiyanın nadir eksponatlarından N.Nərimanovun tarı və ona hədiyyə verilən tütək maraq doğurur. Görkəmli xadim bu tarı ara-sıra dilləndirər, evə gələn qonaqları feyziyab edərmiş. Bu evin qonaqları isə Hüseynqulu Sarabski, Əzim Əzimzadə, Əbülfəs Qarayev, Abdulla Şaiq, Üzeyir bəy, Nəcəf bəy Vəzirov, Hüseyn Ərəblinski, Yusif Vəzir Çəmənzəminli, Səməd Mənsur, Cəlil Məmmədquluzadə olub. Hətta Məmməd Əmin Rəsulzadə də bu evə qonaq gəlib. Onlar bu qonaqqaralı evə tez-tez yığışar, ağ süfrə salınan stolun arxasında çay içə-içə dərdləşər, müzakirələr apararmışlar: "Ona görə bu otaqların hər biri eksponatdır. O insanlar hər cümə axşamı bu evə yığışarmışlar, axırda da hər dəfə Sarabski oxuyarmış. Nərimanov Sarabskinin səsini çox sevərmiş. Toyunda da Sarabski oxuyub".

N.Nərimanov gec ailə qurub. Evlənəndə 44 yaşı varmış. O, bacı-qardaşlarının uşaqlarını saxlayırmış. İki bacısının yoldaşı erməni-müsəlman qırğınında ölüb. Müəllim işlədiyi dövrdə onların uşaqlarını böyüdüb. Onları yerbəyer etdikdən sonra Odessada Tibb fakültəsinə daxil olub: "Qayıdandan sonra isə qardaşı Salmanın uşaqları başsız qaldıqlarından onlara baxıb. Onda nənəmin 3 yaşı olub".

Bu evdə yaşayanlar 1918-ci il mart qırğınının şahidi olublar: "Nənəm danışırdı ki, Nərimanov Şaumyanı, Caparidzeni bu evə yığaraq, qırğının qarşısını almaq üçün onlardan tədbirlər görməyi tələb edirmiş. Nə qədər səy göstərsə də, buna nail ola bilməyib. Həmin faciəli hadisədən sonra Nərimanovun səhhətində problemlər yaranıb.

*Davamı səhifə 21-də*

# Hər bir otağı eksponat olan ev

*__Əvvəli səhifə 20-də__*

Onun ayaqları tutulub. Həkimlərin təkidi ilə iyun ayında Həştərxan yaxınlığında Tinaki xəstəxanasına aparılıb. Nərimanov xəstəxanada palçıq müalicəsi alırmış. Bir neçə aydan sonra isə əsa ilə gəzməyə başlayıb". İltifat xanım danışırmış ki, N.Nərimanovu yaşadığı evdən "Merkuri" paroxoduna qədər xərəkdə aparıblar. Bir il sonra qurultayda iştirak etmək üçün Moskvaya yola düşüb və Lenin də onu ilk dəfə orada görüb. N.Nərimanov Şərq şöbəsinin müdiri vəzifəsində işləməyə dəvət alıb: "Nənəm danışırdı ki, əmim Həştərxana qayıdandan sonra məsləkdaşları ilə çox məsləhətləşdi. Qərara aldı ki, bu vəzifəni qəbul etsin. 1919-cu ildə onlar ailəlikcə Moskvaya köçüblər. Qardaşı uşaqları əmiləri sürgünə gedəndə də, Moskvaya işə gedəndə də, 20-ci ildə Bakıya gələndə də yanında olublar. Onun başı nə qədər işə qarışsa da, ailəsini diqqətdən kənarda saxlamayıb".

## XEYİRXAH QƏLBLİ HƏKİM

Muzeyin 4-cü otağı tibbi kabinetdir. Bu otaqda eksponatlar İltifat xanımın xatirələrinə əsasən həmin illərdə olduğu kimi düzülüb. N.Nərimanovun tibbi alətləri, dərman saxlanılan şkafı, asılqanı, divardakı tablolar böyük mütəfəkkirin həkimlik fəaliyyətindən söhbət açır. Tibb alətləri ilə dolu şkafı ona institutu qurtaranda tələbə yoldaşları hədiyyə edib. Stolun üstündə isə tibbə aid kitablar və yazdığı reseptlərın fotosurəti var. Divarda N.Nərimanovun Odessada Novorossiysk Universitetinin Tibb fakültəsini bitirməsi barədə diplomu ( Odessa, 1908-ci il) yer alıb. Digər divara söykənən kitab dolu şkafın arxasındakı - hazırda bağlı olan qapıdan N.Nərimanov xəstələrini qəbil edərmiş. Xeyirxah qəlbli həkim pulu olmayan xəstələrini müayinə etdikdən sonra reseptlərinin üzərinə pul qoyub onları yola salarmış. Xəstələrini yoluxanda da onların yastığının altına pul qoyarmış.

Fond və kolleksiyalar barədə məlumat verən direktor bildirdi ki, ümumilikdə muzeyin fondunda beş min ədəddən yuxarı müxtəlif eksponatlar, sənəd və materialların əsli, xatirələr, Nərimanovun ailəsinin geneologiyası və s. əşyalar qorunub saxlanılır. Hazırda muzeyin əsas fondunda 5620 ədəd, elmi-köməkçi fondunda 1958 ədəd eksponat saxlanılır.

Son vaxtlarda muzeyə hədiyyə edilən eksponatlar sırasında "Molla Nəsrəddin" jurnalının bir neçə sayı da var. N.Nərimanov jurnalı müntəzəm izləyirmiş. Həmçinin "Borçalı" Cəmiyyətinin üzvü Tofiq Orucov gürcü rəssamı Zaur Acbanın çəkdiyi N.Nərimanovun portreti və 1980-ci ildə Tibb Universiteti tərəfindən N.Nərimanovun şərəfinə buraxılan xatirə medalını muzeyə hədiyyə edib.

Kamilə xanım bildirdi ki, muzeyin yeni ekspozisiyası açılandan sonra ziyarətçilərin sayı da çoxalıb. Bu gün muzeyi ziyarətə tələbələr, şagirdlər, tədqiqatçılar gəlir. N.Nərimanovun həyat və fəaliyyətinə bələd olan əcnəbilər də muzeyi ziyarət edirlər. Eksponatlar onlara keşməkeşlər və şərəflə dolu bir ömürdən söhbət açır.

**Muzeyi ziyarət etdi:**
**Təranə Məhərrəmova**